# Mülki təhsil testi

## Təlimat

Qarşınızdakı imtahan testinin elektron bukletidir.

Tapşırıqların təlimatı ilə diqqətlə tanış olun, hər bir tapşırığın şərtini yaxşı düşünün və sonra cavab verin.

Testin maksimal balı 55-dir.

Testi yerinə yetirmək üçün sizə 4 saat vaxt verilir.

Sizə uğurlar arzulayırıq!





## Təlimat

- **Seçimli cavabı olan tapşırıq (1-12, 19.1, 23.1, 23.2)**

Hər suala dörd cavab variantı verilir. Onlardan yalnız biri düzgündür. Cavablar vərəqində düzgün cavabın müvafiq xanasında **X** işarəsi qoyun. Başqa heç bir qeyd elektron proqram tərəfindən qəbul edilmir. İşarə edilmiş cavabı düzəltmək istəsəniz, **X** işarəsi qoyulmuş xananı bütünlüklə rəngləyin və sonra cavabın yeni variantını seçin. Düzəldilmiş cavabın təkrar seçilməsi qeyri-mümkündür. Hər tapşırıq 1 balla qiymətləndirilir.

(1) **1. İnsanın bir hüququnun pozulmasının digər hüquqlarının həyata keçirilməsinə mənfi təsir göstərdiyini nəzərdə tutan prinsip:**

ა) iyerarxiya;

ბ) toxunulmazlıq;

გ) universallıq;

დ) qarşılıqlı asılılıq.

(1) **2. İnsan hüquqları qanununda "pozitiv öhdəliklər" konsepsiyasının mahiyyəti nədir?**

ა) Fərdlərin başqa insanların beynəlxalq səviyyədə tanınmış hüquqlarına hörmət etmək öhdəliyi;

ბ) Dövlətin insan hüquqlarının müdafiəsini təmin etmək üçün konkret tədbirlər görmək öhdəliyi;

გ) Dövlətin öz vətəndaşlarının hüquqlarını pozmaqdan çəkinmək öhdəliyi;

დ) Beynəlxalq təşkilatların tam və adekvat şəkildə kompensasiya vermək öhdəliyi.

## (1) 3. İqtisadi fəaliyyətdə dividend nə deməkdir?

ა) Pul sərmayələri və ya borc öhdəlikləri ilə əlaqədar istənilən növ borc tələbindən əldə edilmiş əvvəlcədən bəyan edilmiş hər hansı gəlir;

ბ) Vergi ödəyicisi tərəfindən müəyyən edilmiş müddətdə ödənilməmiş vergilərin və ya sanksiyaların məbləği və əlavə ödənilmiş vergilərin və/və ya sanksiyaların məbləği arasındakı fərq;

გ) Səhmdarın səhmlərdən və ya paylardan mənfəətin bölüşdürülməsi nəticəsində kapitaldakı paylarda nisbətdə və ya nisbəti saxlanılmadan əldə etdiyi gəlir;

დ) İdxal olunan malların və ya xidmətlərin qiymətinə əlavə olaraq müəyyən edilən və idxalçı tərəfindən mal və ya xidmətlərin bu vergi ilə artırılmış qiymətə idxalı zamanı ödənilən vergi.

(1) **4. Aşağıdakı vergi növlərindən hansı Gürcüstan qanunvericiliyinə əsasən, ümumi dövlət vergisi deyil, yerli vergidir?**

ა) Əmlak vergisi;

ბ) Mənfəət vergisi;

გ) İdxal vergisi

დ) Gəlir vergisi.

(1) **5. Neoliberal siyasət dövlət iqtisadiyyatına necə təsir göstərir?**

ა) Kapitalizmi ləğv edir və ölkələri planlı iqtisadiyyata keçirir;

ბ) Yerli istehsalı və bazarları qlobal təsirlərdən qoruyur;

გ) Dövlət sektorunu artırır, dövlət mülkiyyətini təsdiq edir və tənzimləmələri sərtləşdirir;

დ) Azad bazara, derequlyasiyaya və dövlət xidmətlərinin özəlləşdirilməsinə kömək edir.

(1) **6. Gürcüstan Konstitusiyasının preambulasında vətəndaşların demokratik ictimai quruluş yaratmaq üçün sarsılmaz iradəsi bəyan edilir. Qeyd olunan quruluş haqqında aşağıda verilmiş mülahizələrdən hansı doğru deyil?**

ა) Demokratik ictimai quruluş azlıqların hüquqlarının müdafiəsini, plüralizmi və cəmiyyət qarşısında dövlət hakimiyyətinin məsuliyyətini təmin edir;

ბ) Demokratik ictimai quruluş hakimiyyətin bölünməsini, nəzarət mexanizmlərinin mövcudluğunu, vətəndaşların siyasi həyatda fəal iştirakını nəzərdə tutur;

გ) Demokratik ictimai quruluş xalqın suverenliyinə, qanunun aliliyinə və insan hüquqlarının, o cümlədən ifadə və toplaşma azadlığının qorunmasına əsaslanır;

დ) Demokratik ictimai quruluş ictimai asayişi və təhlükəsizliyi istənilən metodla qorumaq üçün hökumətin cəmiyyət üzərində tam nəzarətə malik olmasını tələb edir.

(1) **7. Tapşırıqda verilmiş diaqramda hansı iyerarxiya təqdim olunmuşdur?**




ა) Tullantıların idarə olunması;

ბ) Neft hasilatı;

გ) İstehsalatın inkişafı;

დ) Resursların mobilizasiyası.

(1) **8. Hansı mülahizə dəyərlərin toqquşması ilə maraqların toqquşması arasındakı fərqi düzgün təqdim edir?**

ა) Dəyərlərin toqquşması ilə maraqların toqquşması arasında yeganə real fərq onların miqyasındadır. Dəyər toqquşmaları adətən daha geniş və qlobal xarakter daşıyır, maraqların toqquşması isə lokal xarakter daşıyır və konkret tərəflər arasında toqquşmanı təmsil edir;

ბ) Dəyər toqquşmaları daxili, subyektiv inanclara aid olduğundan, onların təhlili və idarə olunması yalnız psixoloji metodlarla mümkündür, xarici, obyektiv faktlara aid olan maraqların toqquşması isə iqtisadi və ya siyasi alətlərdən istifadə etməklə həll edilə bilər;

გ) Dəyər toquşmasının əsasını davranışı müəyyən edən bir-birinə uyuşmayan fundamental prinsiplər və əxlaqi inanclar təşkil edir. Maraqların toqquşması məhdud resurslara malik olmaq istəyindən yaranır və diqqət hər bir tərəfin özlüyündə doğru olana deyil, nədən faydalanacağına yönəlir;

დ) Dəyər toqquşmaları ənənəvi normaların və fərqli baxışlara qarşı dözümsüzlüyün hökm sürdüyü daha primitiv və inkişafın aşağı səviyyəsində olan cəmiyyətlərdə yayılmışdır. İnkişaf etmiş cəmiyyətlərdə isə maraqların toqquşması üstünlük təşkil edir ki, bu da daha sivil şəkildə həll oluna bilər.

(1) **9. Tomas Hobbsun "Leviafan" əsərindən sitatı oxuyun və suala cavab verin:**

“Nə qədər ki, insanlar hamını qorxu içində saxlayan ümumi hakimiyyətdən məhrumdur, onlar elə müharibə vəziyyətindədir ki, hamı hamıya qarşı müharibə aparır. Çünki müharibə yalnız döyüş, yaxud hərbi əməliyyat deyil, həm də elə zaman kəsiyidir ki, bu vaxtda mübarizə iradəsi döyüş yolu vasitəsilə öz aşkar təsirini göstərmiş olur.”

**Sitata əsasən, Hobbs üçün ümumi güc nə üçün vacibdir və bu gücün onun təklif etdiyi “ictimai müqavilə” ideyası ilə əlaqəsi necədir?**

ა) Ona görə ki, ümumi güc təbii halı bitirir və ictimai müqaviləyə əsaslanan nizam yaradır;

ბ) Ona görə ki, ümumi güc vətəndaşlara sosial müqaviləni istisna edən qeyri-məhdud azadlıq verir;

გ) Ona görə ki, gücə Allah zəmanət verir və dövlət xalqı tiran idarəçiliyindən qorumağa borcludur;

დ) Ona görə ki, ölkəni xarici düşmənlərdən qorumaq üçün güc lazımdır, ölkənin daxili nizamı isə təbii şəkildə formalaşır.

(1) **10. Aleksis de Tokvilin Harriet Qrota yazdığı məktubdan bir parçanı oxuyun və suala cavab verin:**

“Siz Avropadakı köhnə cəmiyyət sistemimizin əsaslandığı prinsipləri, eləcə də, onunla birlikdə gələn azadlıq və fərdi məsuliyyəti müdafiə edirsiniz; Siz, xüsusilə də, mülkiyyət hüququnun tətbiq edilməsini müdafiə edirsiniz. Siz tamamilə haqlısınız; bu əsas qanunlar olmadan həyatı təsəvvür etmək həm sizin, həm də mənim üçün çətindir. Bununla belə, etiraf edirəm ki, heç birimizin ondan başqa bir yerə baxa bilmədiyi bu köhnə dünya, deyəsən, harada isə yoxa çıxıb. Bu nəhəng və hörmətli maşının mexanizmləri, görünür, gündən-günə tükənir; İrəliyə baxa bilməsəm də, indiki zamanın davamlılığına inamım sarsılır. ... Amma vicdanlı insanların başa düşdüyü yeganə sistemi müdafiə etmək, hətta onun uğrunda canlarını belə qurban vermək öhdəliyi onlara daha yaxşı bir sistem göstərilməsə, azalmır”.

**Verilmiş parçada müəllif hansı siyasi ideologiyanın prinsiplərindən danışır?**

ა) Anarxizmin;

ბ) Populizmin;

გ) Sosializmin;

დ) Konservatizmin.

(1) **11. İnfoqrafiya Gürcüstanın ali təhsil və elmi tədqiqat müəssisələrində aparılan tədqiqatlara dair məlumatları təqdim edir:**



## İnfoqrafiyanın məlumatlarına hansı mülahizə uyğun gəlir?

ა) Əvvəlki illə müqayisədə 2021-ci ildə ali təhsil və elm müəssisələrinin sayı artıb, yerinə yetirilən işlərin həcmi isə azalıb;

ბ) 2021-ci ildə ali təhsil və elm müəssisələrində həm işçilər, həm də alimlər arasında qadınların sayı kişilərdən çoxdur;

გ) 2021-ci ildə ali təhsil və elm müəssisələrində yaşı 65-dən yuxarı olan işçilər arasında qadınların sayı kişilərdən çoxdur;

დ) 2021-ci ildə ali təhsil və elm müəssisələrində işçilərin bütün yaş kateqoriyalarında kişilər üstünlük təşkil edirlər.

(1) **12. Tapşırıqda 2010-2023-cü illərdə müxtəlif ölkələrə ixrac edilən məhsul və xidmətlərin dəyəri verilmişdir:**



**Məlumatlar əsasında çıxarılan hansı nəticə doğrudur?**

ა) Moldovanın ixrac etdiyi məhsul və xidmətlərin dəyəri 2020-ci ildə pandemiya səbəbindən azalmayıb, 2023-cü ildə isə iki dəfə artaraq onu digər ölkələr arasında lider mövqeyə çatdırıb;

ბ) Qırğızıstanın ixrac etdiyi məhsul və xidmətlərin dəyəri 2010-cu ildən bəri hər il artıb və 2023-cü ildə digər ölkələrlə müqayisədə ən yüksək göstəriciyə malik olub;

გ) Gürcüstanın ixrac etdiyi məhsul və xidmətlərin dəyəri 2010-cu ildən dayanmadan artıb və 2023-cü ildə 8 milyard dolları keçərək tarixi maksimuma çatıb;

დ) Livanın ixrac etdiyi məhsul və xidmətlərin dəyəri 2010-2019-cu illər arasında digər ölkələrlə müqayisədə yüksək səviyyədə idi, lakin 2020-ci ildə kəskin şəkildə azaldı və sonrakı illərdə əvvəlki səviyyəsinə qayıtmadı.

## Təlimat

**Ardıcıllığın müəyyən edilməsi (№13)**

Tapşırıqda verilmiş siyahını göstərilmiş prinsipə uyğun olaraq düzün. Cavabları cavab vərəqəsində verilən xanalarda yazın. Nəzərə alın ki, xanaya ancaq seçilmiş cavabın rəqəmi yazılır. Balların maksimal miqdarı tapşırığın qarşısında verilmişdir.

(1) **13. Gürcüstan vətəndaşının sxemdə verilən hüquqlarına görə yaş senzinin mərhələlərini ardıcıllıqla düzün:**

1. Andlılar məhkəməsində iştirak
2. Gürcüstan prezidenti seçilmək
3. Ümumi məhkəmənin hakimi təyin olunmaq
4. Gürcüstan parlamentinin üzvü seçilmək
5. Konstitusiya məhkəməsinin hakimi təyin olunmaq

| | | | | |
|---|---|---|---|---|
| | 4* | | | |

* Cədvəldə düzgün cavab göstərilmişdir.

## Təlimat

**Uyğunluğun müəyyənləşdirilməsi (№14, 15, 16)**

Tapşırıqda iki sütunda müxtəlif növ siyahı verilmişdir. Bu iki sütunda təqdim olunan məlumatlar arasındakı uyğunluqları müəyyən edin. Cavabları cavab vərəqində verilmiş cədvəldə yazın. Balların maksimal miqdarı tapşırığın qarşısında göstərilmişdir.

(2) **14. II sütunda verilən medianın siyasətə təsiri modellərini I sütunda verilən medianın siyasi əhəmiyyətinə uyğunlaşdırın:**

<table>
<tr><th>I. Medianın siyasi əhəmiyyəti</th><th>II. Modellər</th></tr>
<tr><td>ა) Media, ilk növbədə, iqtisadi cəhətdən güclü sosial təbəqələrin mənafeyini qoruyur və kapitalist hegemonluğunun möhkəmlənməsinə töhfə verir; bu da burjua ideyalarının təbliğində, cəmiyyətə tamamilə qərəzli siyasi baxışın verilməsində özünü göstərir.</td><td rowspan="4">1. Plüralist<br>2. Azad bazar<br>3. Dominant-ideoloji<br>4. Elitaya tabe</td></tr>
<tr><td>ბ) Media, ilk növbədə, biznesdir və bütünlüklə mənfəətə yönəlib. Siyasi proseslərdə iştirak onun üçün vacib deyil. Buna görə də o, hər hansı siyasi baxışlara qarşı qərəzliliyi istisna edir və ictimai əhval-ruhiyyəni/maraqları əks etdirmək funksiyasını qoruyur.</td></tr>
<tr><td>გ) Medianın rolu, əsasən, ictimaiyyəti məlumatlandırmaqdır. O, ölkədəki siyasi baxışların geniş spektrini qərəzsiz şəkildə təqdim edir və cəmiyyətdəki müxtəlif qüvvələri tarazlaşdırmağa çalışır.</td></tr>
<tr><td>დ) Media siyasi qərəzli qrupların, subyektiv redaktor-naşirlərin və ya jurnalistlərin əlində siyasi baxışların dar spektrini əhatə edən alətdir. Onun meyilli siyasi fəaliyyəti mediada çalışan baş mütəxəssislər arasında çoxluq təşkil edən qrupun dəyərlərini əks etdirir.</td></tr>
</table>

(2) **15. İnsan hüquq və azadlıqlarının inkişafının müxtəlif mərhələlərini və ya nəsillərini ayırd edirlər. I sütunda sadalanan insan hüquqları ilə II sütunda sadalanan insan hüquqlarının nəsilləri arasındakı uyğunluğu müəyyən edin:**

| **I. İnsan hüquqları** | **II. İnsan hüquqlarının nəsilləri** |
| --- | --- |
| ა) Söz azadlığı | 1. Birinci nəsil hüquqlar<br>2. İkinci nəsil hüquqlar<br>3. Üçüncü nəsil hüquqlar |
| ბ) Din azadlığı | |
| გ) Mədəni irsin qorunması hüququ | |
| დ) Biomüxtəliflik hüququ | |
| ე) Təhlükəsiz və sağlam iş mühiti hüququ | |

(1) **16. Xəritə 2019-cu ildə dünyanın müxtəlif ölkələrində gender bərabərsizliyinin səviyyəsini təsvir edir. I sütunda verilən ölkələrə II sütunda verilən səviyyələri uyğunlaşdırın:**




| I. Ölkələr | II. Gender bərabərsizliyinin səviyyəsi |
|---|---|
| ა) Çin | 1. Çox aşağı<br>2. Aşağı<br>3. Orta<br>4. Yüksək<br>5. Çox yüksək |
| ბ) İspaniya | |
| გ) Əfqanıstan | |
| დ) İran | |
| ე) Braziliya | |

# Təlimat

## Səhvin düzəldilməsi (№17)

Tapşırıqda verilmiş mətndə faktiki səhvlər buraxılmışdır (tarix, termin, ad və s.). Onları tapın və düzəldin. Tapılmış səhvi və onun düzəldilmiş variantını cavab vərəqəsində verilmiş cədvəldə yazın (səhvi - I sütuna, düzəldilmiş variantı - II sütuna). Nəzərə alın ki, hər bir tapılmış səhvə onun düzəldilmiş variantı ilə birlikdə 1 bal verilir. Balların maksimal miqdarı tapşırıqların qarşısında göstərilmişdir.

## (7) 17. Mətni diqqətlə oxuyun, səhvləri tapın və düzəldin:

### Gürcüstan beynəlxalq münasibətlərdə

Beynəlxalq münasibətlərin tarixi qədim sivilizasiyalara, ölkələrin diplomatiya, ticarət, müharibə və digər fəaliyyətlər vasitəsilə bir-biri ilə əlaqə saxladığı dövrlərə gedib çıxır. 1648-ci il Vestfaliya sülhü beynəlxalq münasibətlərdə dönüş nöqtəsi hesab olunur, çünki o, dövlətlərarası münasibətlərə müasir suverenlik anlayışını, yəni müstəqil, muxtar dövlətin sərhədlərinə və daxili işlərinə qarışmamaq prinsipini tətbiq etmişdir.

Beynəlxalq münasibətlər baxımından XX əsr böyük dəyişikliklərin şahidi oldu. İki dünya müharibəsi, müstəmləkə imperiyalarının dağılması və digər mühüm hadisələr missiyası dövlətlər arasında sülh, təhlükəsizlik və əməkdaşlığı təşviq etmək olan beynəlxalq təşkilatların yaranmasına kömək etdi. Bu mühüm hadisələrdən biri İkinci Dünya müharibəsindən sonra başlayan, bitmə tarixi isə Sovet İttifaqının dağılma tarixi – 1995-ci il 26 dekabr hesab olunan Soyuq müharibə idi.

Beynəlxalq təşkilatlar arasında ən çox üzvü olan, 1949-cu ildə yaradılmış və hazırda dünya dövlətlərinin əksəriyyətini birləşdirən Birləşmiş Millətlər Təşkilatıdır (BMT). Sülh və təhlükəsizliyin təmin edilməsi ilə yanaşı, BMT-nin məqsədlərinə iqtisadi inkişafın təşviqi, insan hüquqlarının populyarizasiyası və humanitar yardımın göstərilməsi daxildir. BMT struktur baxımından fərqli təşkilatdır. O, altı əsas orqandan ibarətdir: Baş Assambleya, Təhlükəsizlik Şurası və başqaları. BMT sisteminə, həmçinin digər köməkçi qurumlar, ixtisaslaşmış müəssisələr və beynəlxalq təşkilatlar, məsələn, Ümumdünya Səhiyyə Təşkilatı, YUNESKO və digər subyektlər daxildir.

*Mətnin ikinci səhifəsinə keçid*

BMT sabitliyi təmin etmək üçün sülhməramlı missiyaları həyata keçirmək imkanına malik olsa da, hələ də hərbi tipli təşkilat deyil. Müvafiq olaraq, iş silahlı münaqişənin həllinə gəldikdə o, daha az təsirlidir. Bu baxımdan hərbi-siyasi birlik olan Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) mövcudluğu mühüm əhəmiyyət kəsb edir. Onun əsas qərargahı Strasburqda yerləşir. NATO-nun mövcudluğu ona üzv olan dövlətlərin ərazilərində davamlı sülhün bərqərar olmasına kömək etdi. Gürcüstanın NATO ilə əməkdaşlığının uzun tarixi var. Müxtəlif vaxtlarda Gürcüstan NATO-nun himayəsi altında Kosovo və Monqolustanda sülhməramlı missiyalarda iştirak edib. 2003-2008-ci illərdə Gürcüstanın Müdafiə Qüvvələri İraqın müdafiə qabiliyyətini inkişaf etdirmək məqsədi daşıyan ABŞ-nin rəhbərlik etdiyi əməliyyata qoşulub.

Beynəlxalq təşkilatlar arasında Avropa dövlətlərinin siyasi birliyini təmsil edən Avropa İttifaqı da (Aİ) seçilir. Aİ-nin qanunverici orqanı Avropa qitəsində sülh və sabitliyin təmin edilməsi üçün mühüm qanunvericilik çərçivəsi yaradan Avropa Parlamentidir. Gürcüstan müstəqilliyini elan etdikdən dərhal sonra Aİ ilə əməkdaşlıq etməyə başladı və bu birliyə üzvlük onun təsdiq olunan siyasi qərarıdır. Gürcüstan dövləti 1999-cu il aprelin 27-də Avropa Komissiyasına üzv olduqda Qərb dünyasına inteqrasiya yolunda mühüm addım atdı. Gürcüstanın bu yolda böyük uğuru 2014-cü ildə Aİ ilə assimilyasiya sazişinin imzalanması, 2023-cü ildə isə Aİ üzvlüyünə namizəd statusu əldə etməsidir.

*Mətnin birinci səhifəsinə qayıtmaq*

## Təlimat

**Açıq tipli tapşırıq (№18, 19.2, 19.3, 20, 21, 22, 23.3-23.7)**

Tapşırığın şərti ilə diqqətlə tanış olun. Cavab vərəqinin müvafiq yerinə tapşırığın şərtinə uyğun, konkret və aydın cavab yazın. Balların maksimal miqdarı hər tapşırığın qarşısındagöstərilmişdir.

(4) **18. Sxem verilmiş dövlətlərin ərazi-siyasi quruluşunu tam əks etdirmir. Sxemi tamamlayın:**

| Dövlət | Dövlətin ərazi quruluşu | Qanunvericilik orqanının (Parlamentin) adı | İdarəolunma forması |
|---|---|---|---|
| **İsrail** | 18.1 | Knesset | Parlament respublikası |
| **Almaniya** | Federativ | 18.2 | Parlament respublikası |
| **İsveç** | Unitar | Riksdaq | 18.3 |
| 18.4 | Unitar | Ali Rada | Yarı prezident respublikası |

(3) **19.** 2024-cü ilin dünya xəritəsi legendasız verilmişdir. Xəritənin təhlilinə əsaslanaraq suallara cavab verin:



(1) **19.1 Verilmiş xəritədə nə əks olunmuşdur?**

ა) Sülhün keyfiyyəti;

ბ) Qanunun aliliyi;

გ) Ömür müddəti;

დ) Siyasi inkişaf.

(1) **19.2 Xəritədəki məlumatlara əsasən, Skandinaviya ölkələrində mövcud olan vəziyyəti qiymətləndirin.**

(1) **19.3 Aşağı göstəricisi olan ölkələrdə mövcud vəziyyəti əmələ gətirən səbəblər haqqında mülahizə yürüdün.**

(5) **20. Tapşırıqda məktəb layihəsinin məqsədləri, məsələləri və yerinə yetirmə yolları natamam şəkildə verilmişdir. Məktəb layihəsinin verilmiş hissəsinin tam şəkil alması üçün tapşırıqları aşağıdakı ardıcıllıqla yerinə yetirin:**

I. Cədvəldə verilmiş yerinə yetirmə yolları siyahısına əsaslanaraq I məsələni müəyyən edin və yazın; *(tapşırıq 20.2)*

II. Cədvəldə verilən II məsələni yerinə yetirməyə kömək edəcəyini düşündüyünüz üç müxtəlif yolu yazın; *(tapşırıq 20.3)*

III. Layihənin hər iki məsələsinə və onların yerinə yetirmə yollarına əsaslanaraq, yerinə yetirilməsi mümkün olan layihənin məqsədini müəyyən edin və yazın. *(tapşırıq 20.1)*

| | | |
|---|---|---|
| (1) | 20.1 | **Layihənin məqsədi:** *(Verilən məsələlərə və yerinə yetirmə yollarına əsasən əldə edilə bilən məqsədi yazın).* |
| (1) | 20.2 | **Layihənin I məsələsi:**<br>*(I məsələnin yerinə yetirmə yollarına əsasən müəyyən bir məsələ təyin edin və yazın).*<br><br>**Layihənin II məsələsi: Şagirdlərin tənqidi təfəkkürünün və siyasi dezinformasiyaya qarşı dözümlülüyünün gücləndirilməsi** |
| (3) | 20.3 | **I məsələnin həyata keçirilmə yolları:**<br>1. Şagirdlərin iştirakı ilə "Seçkilərin rolu və fəal vətəndaşlığın əhəmiyyəti" mövzusunda konfransın təşkil edilməsi.<br>2. Seçkidə müşahidə missiyası olan təşkilat nümayəndəsinin dəvət edilməsi və şagirdlər üçün "Ədalətli seçkilər" mövzusunda mühazirə keçirilməsi.<br>3. Sinifdə simulyasiya oyunları vasitəsilə seçkilərin keçirilməsi.<br><br>**II məsələnin həyata keçirilmə yolları:**<br>*(verilən məsələni həyata keçirmək üçün 3 müxtəlif yol yazın).*<br>1.<br>2.<br>3. |

(4) **21. İllüstrasiya ilə tanış olun və suallara cavab verin:**



(1) **21.1 İllüstrasiyanın əsas ideyası nədir?**

(1) **21.2 Verilmiş illüstrasiya hansı idarəolunma sistemini təsvir edir?**

(2) **21.3 İllüstrasiyada ifadə olunan ideyanın hansı mexanizmlə təmin olunduğu və onun cəmiyyətin inkişafına necə kömək etdiyi haqqında mülahizə yürüdün.**

(5) **22. Mətnlə tanış olun və tapşırığı aşağıda verilən göstərişlər əsasında yerinə yetirin:**

“Güclü süni intellekt (AI) sadəcə nəticəsinin müsbət və risklərin idarə edilə bilən olacağından əmin olduğumuz halda inkişaf etdirilməlidir. Bu əminlik lazımınca sübut olunmalı və sistemin mümkün nəticə artımı ilə birlikdə çoxalmalıdır. Bu səbəblə biz bütün AI laboratoriyalarını ən azı 6 ay üçün AI sistemlərinin təlimlərini dayandırmağa dəvət edirik. Bu dayandırma ictimai və açıq olmalı, bütün proses iştitakçılarının qoşulmasını təmin etməlidir. Əgər bu dayandırma təcili şəkildə həyata keçirilməzsə, işə hökumət qoşulmalı və moratorium elan etməlidir.”

**“Süni intellekt təcrübələri dayandırılsın” petisiyası, 22 mart 2023-cü il**

(1) **22.1 Mətndən irəli gələrək diskussiya mövzusunu müəyyən edin və adlandırın. Seçdiyiniz diskussiya mövzusunun verilmiş mətnlə uyğunluğunu və onun aktuallığını müzakirə edin;**

(4) **22.2 A. Diskussiya zamanı yaranan mövqeni müdafiə etmək üçün iki arqument gətirin;**

**B. Diskussiya zamanı yaranan mövqeni inkar etmək üçün iki arqument gətirin;**

(Hər bir arqument mahiyyətcə bir-birindən fərqli fikri əhatə etməlidir.)

## (9) 23. Verilən mənbələri təhlil edin və suallara cavab verin.

**Mənbə N1**




**Fransa inqilabı (1789-1799) dövrünə aid, gilyotinlər fonunda Maksimilian Robespyeri təsvir edən qravüra.**

**Mənbə N2**



ПРОТОКОЛ № 14
заседания Бюро ЦК КП (б) Грузии
1937 г.
пункт № 5
Индекс

5. О самоубийстве П.ЯШВИЛИ.
(т.Берия)

1. Констатировать, что самоубийство П.ЯШВИЛИ, разоблаченного как шпиона и врага народа, является провокационным выпадом против партии и Советской власти, а поэтому похоронить его как врага народа.

2. Поручить тов.БЕРИЯ проинформировать Президиум Союза Советских писателей Грузии о контрреволюционной, шпионской и вредительской работе П.ЯШВИЛИ.

СЕКРЕТАРЬ ЦК КП(б)Гр:

**Kommunist Partiyası Mərkəzi Komitəsinin protokolu, 1937-ci il**

“1. Qeyd edək ki, casus və xalq düşməni kimi ifşa olunan P. İyaşvilinin intiharı partiyaya və sovet hakimiyyətinə qarşı təxribat xarakterli çıxışı ifadə edir və buna görə də o, xalq düşməni kimi dəfn edilməlidir.

2. Gürcüstanın Yazıçılar İttifaqının prezidiumu üçün P. İyaşvilinin əksinqilabi, casusluq və başqa pis fəaliyyətləri haqqında məlumatların çatdırılması yoldaş Beriyaya tapşırılsın".

*Mənbələrə keçid:* 3 4 5

*Tapşırıqlara keçid:* 23.1 23.2 23.3-23.7

**Mənbə N3**

“Bizim bölünməyimizə can atanlar; hökumətin irəliləyişinə mane olanlar; hər gün hökumətə qarşı təhlükəli birləşmələrin hər cür qəzəbli istəklərinə, alovlu qürur və ictimai marağa və vətənə zidd olan şeylərə xəyanətkarcasına can atanlar sizin və vətənin düşmənləridirlər. Onlar xaricin agentləridir.”

**Maksimilian Robespyer, 1758 – 1759-cu illər;**

**Mənbə N4**

“Stalin “xalqın düşməni” konsepsiyası icad etdi. Bu məfhum şübhəli insanların və ya insan qrupunun ideoloji səhvləri sübut olunmasını təkzib edirdi. Bu hər hansı bir şəkildə Stalinlə razılaşmayan; sadəcə düşmənçilik niyyəti ilə təqsirləndirilən, pis reputasiyası olan hər insana qarşı, inqilabi qanunvericiliyin bütün normalarını pozan, ən qəddar repressiyaların tətbiqinə şərait yaratdı. “Xalqın düşməni” məfhumu ideoloji qarşıdurmaları və ya hər hansı isə mövzuda şəxsi baxışların mövcudluğunu, praktik məsələlərlə əlaqələri də məhv etdi. Rəsmi sistemə qarşı cinayətin yeganə sübutu olaraq, şübhəli şəxsin öz “etirafı” qəbul edilirdi. Sonrakı tədqiqatların göstərdiyi kimi, “etiraf” şübhəli şəxsə qarşı fiziki zorakılıqla əldə edilirdi. [...] keçmişdə partiya xəttini qoruyanlar qurbana çevrildilər. Qəbul etməliyik ki, partiya xəttinə qarşı çıxan şəxslərin fiziki məhv edilməsi üçün ciddi heç bir əsas mövcud olmurdu. “Xalq düşməni” anlayışı sırf bənzər şəxslərin məhv olunması üçün qəbul edilmişdi.”

**Nikita Xruşşov, Gizli məruzə, Sovet İttifaqı Kommunist Partiyasının XX yığıncağı, 1956-cı il.**

***Mənbələrə keçid:*** *1-2* *3* *5*

***Tapşırıqlara keçid:*** *23.1* *23.2* *23.3-23.7*

**Mənbə N5**

“Despot və Totalitar Gizli Xidmətlər arasındakı fərq “şübhəli” və “obyektiv düşmən”də gizlidir. “Obyektiv düşmən” hökuməti devirmənin real istəyindən irəli gələrək yox, hökumətin siyasəti tərəfindən təyin edilir. O heç bir zaman təhlükəli fikirlər ilə provokasiya edən və ya keçmişi onun təqsirləndirilməsinə haqq qazandıran fərd olmur. Əksinə, o, xəstəlik daşıyıcısı kimi, “tendensiyaların daşıyıcısı” olur. Praktik olaraq, totalitar rəhbər hər kəs onun düşməni olduğunu anlayana və bu səbəblə hökumətin onları özünümüdafiə məqsədilə öldürə biləcəyini başa düşənə qədər dayanmadan başqa insanları alçaldan adam kimi davranır.”

**Hanna Ardent, “Totalitarizmin başlanğıcı”, 1951-ci il.**

(1) **23.1 Hanna Ardentin mətninə əsasən:**

ა) Totalitar hökmdar ölkənin maraqlarını qorumaq üçün dövlətin düşmənlərinə qarşı mübarizə aparır;

ბ) Dövlətin fəaliyyətinə təhlükə yaratdığı zaman düşmənləri öldürmək olar;

გ) Totalitar hökmdar sonradan həmin qrupun öhdəsindən gəlmək üçün cəmiyyəti müəyyən bir qrup insanla qarşı-qarşıya qoyur;

დ) "Obyektiv düşmən" dövləti devirmək istəyi ilə bütün cəmiyyətə qarşı çıxan şəxsdir.

***Mənbələrə keçid:*** *1-2* *3* *4* *5*     ***Tapşırıqlara keçid:*** *23.2* *23.3-23.7*

(1) **23.2 N4 mənbəyə əsasən,"Xalq düşməni" anlayışının qəbul edilməsi nə ilə nəticələndi?**

ა) Şübhəliləri ifşa etmək və aradan qaldırmaqla ölkənin ən yaxşı maraqlarının qorunması ilə;

ბ) Tənqidi düşüncəli fərdlərə ideoloji səhvləri sübut etmək imkanı verdi;

გ) Sübutlara əsaslanaraq, sistemə qarşı düşmən münasibət bəsləyən insanların məhkum edilməsi ilə.

დ) İdeoloji ziddiyyətləri və vətəndaşların öz şəxsi fikirlərini ifadə etmək imkanını aradan qaldırdı.

***Mənbələrə keçid:*** *1-2* *3* *4* *5*

***Tapşırıqlara keçid:*** *23.1* *23.3-23.7*

(1) **23.3** N1 mənbədən istifadə edərək, Maksimilian Robespyerin N3 mənbədə ifadə etdiyi fikirlərin hansı siyasi məqsədləri daşıdığı haqqında mülahizə yürüdün;

(2) **23.4** Hanna Ardentin mətninə əsasən, "şübhəli" ilə "obyektiv düşmən" arasındakı fərq nədir? Mülahizə yürüdün, nə üçün "şübhəli" ilə müqayisədə "obyektiv düşmən" anlayışının qəbul edilməsi totalitar hökmdarın gücünün möhkəmləndirilməsini asanlaşdırır?

(1) **23.5** Nikita Xruşşovun fikrincə, "keçmişdə partiya xəttini qoruyanlar qurbana çevrildilər". Totalitar dövlətin hansı səbəblə hətta "partiya xəttini" müdafiə edənləri belə qurbana çevirə biləcəyi haqqında mülahizə yürüdün.

(1) **23.6** N3 mənbədə Maksimilian Robespyer hökumətə qarşı çıxan insanları "vətən düşmənləri" adlandırır. Vətəndaşın vətənin maraqlarını nə dərəcədə müdafiə edə biləcəyi və eyni zamanda hakimiyyəti tənqid edə biləcəyi haqqında arqumentli mülahizə yürüdün.

(2) **23.7** N2 mənbəyə əsasən, Stalinin "xalq düşmənləri"ni təqib etmək siyasətinin gürcü cəmiyyətinə necə təsir etdiyi haqqında mülahizə yürüdün. Mənbələrdə təsvir olunan siyasəti həyata keçirmək üçün hökmdarın gücünü məhdudlaşdıran müasir demokratik dövlət mexanizmləri haqqında mülahizə yürüdün.

***Mənbələrə keçid:*** *1-2* *3* *4* *5*

***Tapşırıqlara keçid:*** *23.1* *23.2*